## "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI[1]

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 15.3.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon (şəhər) icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının *Əmlak Məsələləri Dövlət Komitəsi* ilə razılaşdırmaqla öz səlahiyyətləri daxilində həyata keçirirlər;[2]

1.2. həmin Qanunun 24.7-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini birinci halda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Dövlət Baytarlıq Nəzarəti Xidməti*, ikinci halda yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[3]

1.3. həmin Qanunun 36.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Milli Elmlər Akademiyası həyata keçirir;

1.4. həmin Qanunun 38-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir.

2. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 aprel 2007-ci il
562

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 iyul 2015-ci il tarixli **573** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 841**)
2. 15 fevral 2016-cı il tarixli **787** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 fevral 2016-cı il, 40; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 251**)
3. 2 avqust 2019-cu il tarixli **803** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 avqust 2019-cu il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1386**)

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 2 avqust 2019-cu il tarixli **803** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 avqust 2019-cu il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1386**) ilə ləğv edilmişdir.

[2] 15 fevral 2016-cı il tarixli **787** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 fevral 2016-cı il, 40; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 251**) ilə 1.1-ci bəndində "**Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[3] 23 iyul 2015-ci il tarixli **573** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 24 iyul 2015-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 841**) ilə 1.2-ci bəndində "**Dövlət Baytarlıq Xidməti**" sözləri "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ilə əvəz edilmişdir.